**«Azərbaycan Respublikasında 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə bağlı Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və «Azərbaycan Respublikasında 2014-cü ilin «Sənaye ili» elan edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 10 yanvar tarixli 212 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. «Azərbaycan Respublikasında 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə bağlı Tədbirlər Planı» təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

   3.1. «Azərbaycan Respublikasında 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə bağlı Tədbirlər Planı»nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

   3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 12 mart 2014-cü il***

*Azərbaycan Respublikası*
*Prezidentinin*
*2014-cü il 12 mart tarixli, 331*
*nömrəli*
*Sərəncamı ilə*
*təsdiq edilmişdir*

**Azərbaycan Respublikasında 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə bağlı**
**Tədbirlər Planı**

***(Tədbirlərin 2014-cü il ərzində həyata keçirilməsi nəzərdə tutulur)***

| **№** | **Tədbirin adı** | **İcraçılar** |
|---|---|---|
| **Sənaye potensialının gücləndirilməsi** | | |
| 1. | Sənaye müəssisələrinin yenidən qurulması və yeni emal sənayesi müəssisələrinin yaradılması işlərinin dəstəklənməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 2. | Azərbaycanda polad istehsalı kompleksinin qurulması məqsədi ilə məsləhətçi şirkətin cəlb edilməsi, texniki iqtisadi əsaslandırmanın hazırlanması və layihələndirmə işlərinə başlanılması | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 3. | Müasir Neft-qaz emalı və neft-kimya kompleksinin yaradılmasına dair təkliflərin Azərbaycan | Azərbaycan Respublikasında müasir Neft-qaz emalı və neft-kimya kompleksinin yaradılması ilə bağlı |

| | | |
|---|---|---|
| | Respublikasının Prezidentinə təqdim olunması | Komissiya |
| 4. | Alternativ enerji qurğu və avadanlığının istehsalı üzrə yeni müəssisələrin istifadəyə verilməsi | Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi |
| 5. | Müdafiə təyinatlı yeni növ məmulatın istehsalı üzrə müəssisələrin istifadəyə verilməsi | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi |
| 6. | Sənaye müəssisələrinin restrukturizasiyası və sağlamlaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsi | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 7. | Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi, müvafiq infrastrukturun qurulması və rezidentlərin cəlb olunması işlərinin davam etdirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Sumqayıt Şəhər İcra Hakimiyyəti |
| 8. | Balaxanı Sənaye Parkında müvafiq infrastrukturun qurulması və rezidentlərin cəlb olunması işlərinin davam etdirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, «Təmiz Şəhər» ASC |
| 9. | Gəncədə sənaye parkının yaradılması ilə bağlı təkliflərin Azərbaycan | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, |

| | | |
|---|---|---|
| | Respublikasının Prezidentinə təqdim edilməsi | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Gəncə Şəhər İcra Hakimiyyəti |
| 10. | Mingəçevirdə sənaye parkının yaradılması ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi, Mingəçevir Şəhər İcra Hakimiyyəti |
| 11. | Yerli istehsalın dəstəklənməsi ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| **Təşkilati tədbirlər** | | |
| 12. | Rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılmasının təşviqi məqsədi ilə nümunəvi investisiya layihələrinin hazırlanması və sahibkarlara təqdim olunması | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 13. | Yerli mütəxəssislərin innovativ təkliflərinin sənaye sektorunda təşviqi məqsədi ilə dövlət orqanlarının, müəssisələrin və elmi təşkilatların nümayəndələrindən ibarət İnnovasiyaların Təşviqi Qrupunun yaradılması | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| 14. | Sənaye müəssisələri ilə dialoqun | Azərbaycan Respublikasının |

| | | |
|---|---|---|
| | gücləndirilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarının və sənaye müəssisələrinin nümayəndələrinin iştirakı ilə sahə işçi qruplarının yaradılması | İqtisadiyyat və Sənaye Nazirliyi |
| 15. | Sənaye sahəsinə aid internet portalının və məlumat bazasının yaradılması | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| 16. | Sənaye müəssisələri və məhsullarına dair elektron kataloqun yaradılması | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 17. | Sənaye məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədi ilə beynəlxalq standartlar əsasında milli standartların hazırlanması işinin gücləndirilməsi, sahələr üzrə yeni texniki komitələrin təşkili | Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 18. | Sənayedə ölçmələrin vəhdətinin təmin olunması, istehsalatda ölçmələrin ötürülməsi effektivliyinin yüksəldilməsi məqsədi ilə etalon və səyyar laboratoriya imkanlarının genişləndirilməsi | Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| **Sənayenin kadr potensialının və elmi təminatının gücləndirilməsi** | | |
| 19. | Ali, orta ixtisas və ilk peşə-ixtisas | Azərbaycan Respublikasının |

| | | |
|---|---|---|
| | təhsili müəssisələrinə 2014-2015-ci tədris ili üçün qəbul planında sənaye və texniki ixtisaslara ayrılan yerlərin artırılması | Nazirlər Kabineti, Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| 20. | Tələbələr və doktorantlar arasında sənayenin inkişafına dair elmi məqalələr müsabiqəsinin keçirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 21. | Sənayenin inkişafı sahəsində aparılan elmi araşdırma və tədqiqatların dəstəklənməsi | Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 22. | Elmi tədqiqat işləri nəticələrinin təsdiqi və kommersiyalaşdırılmasının genişləndirilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 23. | Sənayedə keyfiyyətin idarə olunması sistemlərinin effektiv tətbiqi məqsədi ilə təlimlər keçirilməsi | Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının |

| | | |
|---|---|---|
| | | İqtisadiyyat və Sənaye Nazirliyi |
| 24. | Sənayedə brendləşmə mövzusunda seminarların keçirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 25. | Ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələri ilə istehsalat müəssisələri arasında əlaqələrin genişləndirilməsinə dair tədbirlərin həyata keçirilməsi | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 26. | Ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrində sənaye və texniki sahələr üzrə tədris aparan elmi-pedaqoji və mühəndis-pedaqoji kadrların xaricdə ixtisasartırma kurslarında iştirakının təşkili ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 27. | Yüksəkixtisaslı kadrların hazırlanması məqsədi ilə sənaye və texniki ixtisaslar üzrə ali təhsil müəssisələrində təhsil alan və yüksək nəticələri ilə fərqlənən tələbələrdən xüsusi istedadlar qruplarının formalaşdırılması | Azərbaycan Respublikasının Təhsil Nazirliyi |
| 28. | Sənaye sahəsində ixtisaslı kadr potensialı barədə internet məlumat | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, |

| | | |
|---|---|---|
| | bazasının yaradılması | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi |
| **Normativ hüquqi baza və idarəetmənin təkmilləşdirilməsi** | | |
| 29. | «İnnovasiya fəaliyyəti haqqında» qanun layihəsinin aidiyyəti üzrə təqdim olunması | Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 30. | Sənaye və texnologiyalar parklarında stimullaşdırıcı tədbirlərin genişləndirilməsi ilə bağlı təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| 31. | Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinə dair təkliflərin aidiyyəti üzrə təqdim edilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 32. | Sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi ilə bağlı təkliflərin Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| **Təbliğat və təşviqat işləri** | | |
| 33. | Sənayedə investisiya imkanları barədə təşviqat xarakterli elektron resursların | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |

| | | |
|---|---|---|
| | və çap materiallarının hazırlanması | |
| 34. | Sənayenin inkişafına həsr olunmuş elmi məqalə, kitabça və digər nəşrlərin çap edilməsi | Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 35. | Sənaye obyektlərinə tələbə və şagirdlərin ekskursiyalarının təşkili | Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 36. | «Sənaye ili» ilə əlaqədar görülən işlər haqqında məlumatların kütləvi informasiya vasitələrində mütəmadi işıqlandırılması, KİV nümayəndələrinin sənaye müəssisələrinə səfərlərinin təşkili | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi; AzərTAc, «Azərbaycan Televiziya və Radio Verilişləri» QSC və Azərbaycan Mətbuat Şurası cəlb olunmaqla |
| 37. | Azərbaycanın sənaye məhsullarının ixracının təşviqi, yerli sənaye istehsalçılarının beynəlxalq sərgilərdə iştirakının dəstəklənməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi |
| 38. | Sənaye sahələrində maarifləndirmə işlərinin təşkilinə dair dəyirmi masa, seminar və elmi-praktik konfransların keçirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 39. | Alternativ və bərpa olunan enerji üzrə | Azərbaycan Respublikasının |

| | | |
|---|---|---|
| | beynəlxalq konfransın keçirilməsi | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi |
| 40. | Sənayenin müxtəlif sahələrinə dair sərgilər keçirilməsinin dəstəklənməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 41. | Müdafiə sənayesi beynəlxalq sərgisinin keçirilməsi | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi, aidiyyəti dövlət orqanları |
| 42. | İnnovasiya və ixtira, faydalı model və sənaye nümunələri sərgisinin keçirilməsi | Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 43. | Sənaye və texnologiyalar üzrə jurnalistlər arasında yazı müsabiqəsinin keçirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 44. | Sənaye müəssisələri arasında müxtəlif nominasiyalar üzrə qaliblərin müəyyən edilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |
| 45. | Azərbaycanda sənayenin inkişafı mövzusunda beynəlxalq konfransın keçirilməsi | Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi |